1_Layout 1 25.12.2025 12:47 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 24 (712)

29 dekabr 2025-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# MÜASİR AZƏRBAYCANIN İNKİŞAF VƏ GÜC STRATEGİYASI

**"Azərbaycan" qəzetinin müxbiri İradə Əliyevanın müəllifi olduğu "Müasir Azərbaycanın inkişaf və güc strategiyası" başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.**



Bu gün tarixinin ən qüdrətli mərhələsini yaşayan Azərbaycan dövlətinin möhkəmlənməsi Prezident İlham Əliyevin həyata keçirdiyi ardıcıl və strateji siyasətlə bağlıdır. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin uzunmüddətli inkişaf kursunu əzmlə davam etdirərək Azərbaycana böyük nailiyyətlər qazandıran cənab İlham Əliyevin rəhbərliyi altında xalqımız ən mühüm milli hədəflərinə çatmış, ölkəmizdə daxili sabitliyin təmin edilməsi ilə yanaşı, sosial rifahın yüksəldilməsi, regional və qlobal miqyasda mövqelərin gücləndirilməsi istiqamətində misilsiz uğurlar əldə olunmuşdur. Azərbaycan Prezidentinin fəaliyyəti milli maraqlara söykənən, uzunmüddətli inkişafı hədəfləyən kompleks dövlət idarəçiliyi modeli kimi səciyyələnir və bu model artıq müasir dünyamızın bir çox dövlət rəhbəri üçün mükəmməl nümunəyə çevrilib.

### Milli maraqlara söykənən balans və prinsipiallıq

Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi xarici siyasət müasir beynəlxalq münasibətlər sistemində milli maraqların qətiyyətlə qorunması və praqmatik diplomatiyanın uğurlu sintezidir. Bu siyasət Azərbaycanın müstəqil dövlət kimi mövqelərini möhkəmləndirməklə yanaşı, ölkəni regional və qlobal miqyasda etibarlı tərəfdaş kimi tanıdır.

Dövlət rəhbərimizin xarici siyasət kursunun əsasını suverenlik, ərazi bütövlüyü və beynəlxalq hüquqa hörmət prinsipləri təşkil edir. Xüsusilə tarixi zəfərimizdən, ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpasından sonra yaranmış yeni reallıqlar Azərbaycanın mövqeyini daha da gücləndirib, beynəlxalq münasibətlər sistemində ölkəmizin rolunu artırıb.

Azərbaycanın xarici siyasətində balanslaşdırılmış münasibətlər xüsusi yer tutur. Prezident İlham Əliyev dünya gücləri və qonşu dövlətlərlə münasibətlərdə tərəflərdən birinə qarşı yönəlməyən, qarşılıqlı hörmətə əsaslanan siyasət yürüdür.

Humanitar və mədəni diplomatiya da cənab İlham Əliyevin apardığı xarici siyasətin ayrılmaz hissəsidir. Multikulturalizm, dinlərarası dialoq və beynəlxalq humanitar forumlar Azərbaycanın "yumşaq güc" potensialını gücləndirərək ölkənin dünyaya açıq və etibarlı tərəfdaş imicini möhkəmləndirir. Bu siyasətin uğurlarında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rolu da müstəsnadır.

Prezident İlham Əliyevin xarici siyasəti dəyişən qlobal şərtlərə çevik uyğunlaşan, lakin əsas prinsiplərindən geri çəkilməyən strateji xətdir. Bu siyasət Azərbaycanı beynəlxalq proseslərin passiv iştirakçısından fəal və təşəbbüskar aktora çevirərək ölkənin uzunmüddətli təhlükəsizliyinə və inkişafına xidmət edir.

### Müasir dünyanın çağırışları, əməkdaşlıq və yeni geosiyasi reallıqlar

Azərbaycan Prezidentinin həyata keçirdiyi regional siyasət son illər Cənubi Qafqazda və daha geniş Avrasiya məkanında yeni siyasi və iqtisadi reallıqlar formalaşdırıb. Bu siyasətin əsas mahiyyəti milli maraqlara söykənən, eyni zamanda regional sabitlik və əməkdaşlığı təşviq edən balanslı yanaşmadan ibarətdir.

Azərbaycan qalib dövlət olaraq bu gün regionda sülhün də əsas təşəbbüskarı kimi çıxış edir və öz niyyətinə addım-addım nail olur. Artıq Ermənistanla dayanıqlı sülhün əldə edilməsi, bununla da regionumuzun gələcək təhlükəsizliyi üçün son əsrlərin ən böyük təhdidlərindən birinin tam aradan qalxması çox realdır.

Ölkəmiz bu gün Cənubi Qafqazda nəqliyyat və enerji qovşağı kimi çıxış edir. "Şərq-Qərb" və "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizlərinin fəal iştirakçısıdır, region dövlətlərini qarşıdurmaya deyil, əməkdaşlığa cəlb edən real platformalar yaradır. Zəngəzur dəhlizi (TRIPP) təşəbbüsü də məhz bu baxımdan yalnız Azərbaycanın deyil, bütövlükdə regionun iqtisadi inkişafına xidmət edən layihə kimi qiymətləndirilir.

Prezident İlham Əliyevin regional siyasətində enerji diplomatiyası xüsusi yer tutur. "Cənub qaz dəhlizi", TANAP və TAP layihələri Azərbaycanın Avropanın enerji təhlükəsizliyində strateji tərəfdaş statusunu möhkəmləndirib. Eyni zamanda "yaşıl enerji" istiqamətində atılan addımlar - Xəzər dənizinin külək potensialı, bərpaolunan enerji üzrə beynəlxalq əməkdaşlıq - Azərbaycanın regional gündəliyini gələcəyə yönəldir.

Prezident İlham Əliyevin apardığı regional siyasət gücə deyil, güc və diplomatiyanın vəhdətinə söykənən, praqmatik və uzaqgörən siyasətdir. Bu siyasət Azərbaycanın mövqelərini möhkəmləndirməklə yanaşı, Cənubi Qafqazda uzunmüddətli sülh və əməkdaşlıq üçün real zəmin yaradır.

### Düşünülmüş siyasət, islahatlar və inkişaf xətti

Prezident İlham Əliyevin həyata keçirdiyi daxili siyasət də böyük nailiyyətlərlə müşayiət olunur və ölkədə siyasi sabitliyin möhkəmləndirilməsi, sosial rifahın yüksəldilməsi, institusional islahatların dərinləşdirilməsi ilə səciyyələnir. Bu siyasət dövlət idarəçiliyində effektivliyi artırmaqla yanaşı, vətəndaş mərkəzli yanaşmanı əsas prinsip kimi önə çıxarır.

Dövlətimizin başçısının daxili siyasət kursunun əsasında güclü dövlət - rifahlı cəmiyyət modeli dayanır. Məhz bu yanaşma nəticəsində iqtisadi artım sosial proqramlarla paralel şəkildə aparılır, əldə olunan resurslar insan kapitalının inkişafına yönəldilir.

Daxili siyasətin mühüm istiqamətlərindən biri idarəetmə və kadr islahatlarıdır. Prezident İlham Əliyev dövlət idarəçiliyində çevikliyin, peşəkarlığın artırılması məqsədilə gənc, müasir düşüncəli kadrları irəli çəkir.

Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi Prezidentin daxili siyasətində xüsusi yer tutur. Qeyri-neft sektorunun inkişafı, sənaye parkları və aqroparkların yaradılması, regionların sosial-iqtisadi inkişaf proqramları ölkə daxilində tarazlı inkişafı təmin edir.

Bu gün daxili siyasətin əsas prioritetlərindən biri də işğaldan azad edilmiş ərazilərimizin bərpası və yenidən qurulmasıdır. Bu istiqamətdə aparılan ardıcıl və planlı işlər sayəsində Qarabağ və Şərqi Zəngəzur müasir inkişaf modelinə uyğun şəkildə yenidən qurulur. "Böyük qayıdış" proqramı ardıcıl olaraq həyata keçirilir, keçmiş məcburi köçkünlərimiz öz doğma yurdlarına qayıdırlar.

### Vətəndaş rifahına yönəlmiş dövlət xətti

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin iqtisadi imkanları genişləndikcə bu imkanlar vətəndaşın sosial rifahına yönəldilir. Cənab İlham Əliyev bu gün Azərbaycan nümunəsində dünyanın ən mükəmməl sosial rifah dövlətlərindən birini qurur. Ölkə rəhbərimizin həyata keçirdiyi sosial siyasət Azərbaycanda aparılan ümumi inkişaf strategiyasının əsas tərkib hissəsidir. Bu siyasətin başlıca məqsədi iqtisadi artımın nəticələrini birbaşa vətəndaşların rifahına yönəltməklə yanaşı, eyni zamanda sosial ədaləti və cəmiyyətin dayanıqlı inkişafını təmin etməkdir.

Nəticə etibarilə Prezident İlham Əliyevin fəaliyyəti müasir Azərbaycanın güclü, müstəqil və perspektivli dövlət kimi formalaşmasını təmin edən əsas amillərdən biridir. Daxili sabitlik, sosial ədalət, iqtisadi inkişaf, eləcə də tarazlı və prinsipial xarici siyasət bir-birini tamamlayan vahid strateji xətt təşkil edir. Bu xətt Azərbaycanın yalnız bugünkü çağırışlara cavab verməsinə deyil, həm də gələcək nəsillər üçün dayanıqlı inkişaf təməli yaratmasına xidmət edir.

# DAXİLİ İŞLƏR NAZİRİ GƏNCLƏRİN SIRASINDAN SEÇİM EDİB



Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov dekabrın 22-də respublikanın şəhər, rayon polis orqanları və Daxili Qoşunlarda xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.

Bakı şəhərində keçirilən sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 120 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 13 nəfəri Vətən müharibəsi iştirakçısıdır.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

Qeyd edək ki, Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov tərəfindən 2025-ci il ərzində respublikanın şəhər və rayonlarında ümumilikdə 21 sıra baxışı keçirilib.

Xidmətə qəbul üçün Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət edərək sıra baxışlarında iştirak etmiş gənclərdən 4392 nəfər seçim turunun növbəti mərhələlərinə buraxılıb ki, onlardan da 435 nəfəri Vətən müharibəsi iştirakçısıdır.

**DİN-in Mətbuat xidməti**

# 31 DEKABR - DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ



1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Heydər Əliyevin sədrliyi ilə keçən iclasında 31 dekabrın dünya azərbaycanlılarının həmrəylik bayramı kimi qeyd olunması barədə qərar qəbul edilib. Ali Məclis bununla bağlı qanunvericilik aktının qəbul olunması üçün ölkə parlamentinə - Ali Sovetə müraciət ünvanlayıb. Dekabrın 25-də Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası müraciəti nəzərə alaraq, dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan olunması barədə qanun qəbul edib.

2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirilib. Qurultay soydaşlarımızın milli mənlik şüurunun güclənməsinə, müxtəlif ölkələrdə azərbaycanlı icmalarının mütəşəkkilliyinin və fəallığının artmasına təsir göstərib. Bu, ölkənin ictimai-siyasi həyatında yeni bir hərəkat, dövlət siyasətinin yeni bir istiqaməti idi. Həmin qurultayda Ulu Öndərin böyük iftixarla söylədiyi "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" kəlamı isə dillər əzbərinə çevrilib.

Qurultaydan sonra Ümummilli Lider Heydər Əliyevin 2002-ci il 5 iyul tarixli Fərmanı ilə xaricdəki soydaşlarımızla əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi məqsədilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin (hazırda Diasporla İş üzrə Dövlət Komitəsi) yaradılması, həmin il dekabrın 27-də isə soydaşlarımızla bağlı dövlət siyasəti haqqında qanunun qəbul edilməsi dünya azərbaycanlılarının milli birliyi və təşkilatlanması prosesini daha da gücləndirib.

Yorulmaz fəaliyyəti ilə Heydər Əliyev siyasi fəlsəfəsinə, onun liderlik məktəbinə söykənən Prezident İlham Əliyev Ulu Öndərin bu sahədəki xidmətlərini uğurla davam etdirir. Dövlətimizin başçısının "Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsi haqqında" 2006-cı il 8 fevral tarixli Sərəncamına uyğun olaraq, həmin il martın 16-da Bakıda keçirilən növbəti mötəbər toplantı xaricdə yaşayan azərbaycanlıların diaspordan lobbiyə çevrilməsi istiqamətində yeni addım olub, ölkəmizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması işində əhəmiyyətli rol oynayıb.

2007-ci il martın 9-da Bakıda keçirilən Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin birinci forumu isə bütün türkdilli xalqların həyatında mühüm hadisəyə çevrilib, Azərbaycan Prezidenti İlham Əliyevin Türk dünyasının birliyinə verdiyi əhəmiyyətin parlaq təzahürü kimi tarixə düşüb.

Diasporumuzun təşkilatlanması prosesi bu gün daha sürətlə gedir.

2020-ci ilin 27 sentyabr - 9 noyabr tarixlərində 44 gün davam edən Vətən müharibəsi və 2023-cü ilin 19-20 sentyabr tarixlərində keçirilən antiterror tədbirləri zamanı xalqımız Müzəffər Ali Baş Komandanımızın ətrafında yumruq kimi birləşdi, torpaqlarımızın azadlığı uğrunda mübarizədə milli həmrəyliyin ən gözəl nümunəsini yaratdı. Əslində bu birliyin müəllifi də elə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin özüdür.

Dövlətimizin diaspor siyasəti, həmvətənlərimizin birlik və həmrəyliyinin möhkəmləndirilməsi, onların daha mütəşəkkil formada təşkilatlanması prosesi özünün yeni mərhələsinə qədəm qoyub. Artıq dünya azərbaycanlıları yaşadıqları ölkələrin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında daha fəal rol oynayır, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında, zəngin mədəni irsimizin təbliğində qətiyyət nümayiş etdirirlər. Onlar Azərbaycan dövlətinin dəstəyi sayəsində qardaş və dost xalqların lobbi və diasporları ilə səmərəli əməkdaşlığın qurulması sahəsində təsirli tədbirlər həyata keçirirlər.

**Bayramınız mübarək!**

2_Layout 1 26.12.2025 9:24 Page 1



# 2026-cı il Azərbaycanda “Şəhərsalma və Memarlıq İli” elan edilib

2026-cı il Azərbaycanda “Şəhərsalma və Memarlıq İli” elan edilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev bu barədə sərəncam imzalayıb.




Sərəncam Azərbaycanın çoxəsrlik tarixə malik şəhərsalma və memarlıq mədəniyyəti ənənələrinin yaşadılması, eləcə də ölkədə bu sahədə yeni çağırışlara cavab verən mütərəqqi yanaşmaların təşviqi və tətbiqinin genişləndirilməsi məqsədilə imzalanıb.

Sənədə əsasən, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2026-cı ilin “Şəhərsalma və Memarlıq İli” elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etməlidir.

**AZƏRTAC**

# QARŞIYA QOYULAN TAPŞIRIQLARI YERİNƏ YETİRMƏYƏ HAZIR OLAN DƏSTƏ

Hərbi hissələrimizdə fəaliyyət göstərən xüsusi təyinatlıların silahlı cinayətkarların axtarılması, tutulması, zərərsizləşdirilməsi istiqamətində həyata keçirdikləri xidməti-döyüş fəaliyyəti təqdirəlayiqdir.



25033 saylı hərbi hissənin komandiri polkovnik Telman Həsənov xüsusi təyinatlı dəstənin xidməti-döyüş fəaliyyəti barədə danışarkən bildirdi ki, dəstə hər an qarşıya qoyulan tapşırıqları uğurla yerinə yetirməyə hazırdır. Hərbi qulluqçulardan kifayət qədər fiziki güc və möhkəm iradə tələb edən təlimlərdə iştirak edən xüsusi təyinatlılar yüksək peşəkarlıq nümayiş etdirirlər.

Polkovnik T.Həsənov vurğuladı ki, hərbi hissənin xüsusi təyinatlı dəstəsinin fəaliyyəti digər bölmələrdən spesifikliyi ilə fərqlənir. Belə ki, təlimlər müxtəlif relyef və iqlim şəraitlərində



təşkil olunub keçirilir. Ekstremal vəziyyətlərdə dayanıqlılığın, mərdliyin və şücaətin nümayiş etdirilməsi, vaxtında və düzgün qərarların verilməsi xüsusilə diqqətdə saxlanılır.

Xüsusi təyinatlı dəstənin komandiri mayor Cavid Tağıyev şəxsi heyətlə təlim-məşqlərin hava şəraitindən asılı olmayaraq davamlı xarakter daşıdığını dedi. Qeyd etdi ki, şəxsi heyətin döyüş təlimi daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının müvafiq direktivinin tələblərinə əsasən təşkil edilir. Atəş və fiziki hazırlıqla yanaşı, xüsusi-taktiki hazırlıq, hərbi topoqrafiya, həmlə-desant hazırlığı, tək əsgərin döyüş təlimi, hərbi-tibbi hazırlıq, hərbi mühəndis hazırlığı və mütəxəssislərlə ixtisas hazırlığı üzrə məşğələlərin təşkili daim təkmilləşdirilir. Məşğələ mövzularının hərbi qulluqçular tərəfindən dərindən mənimsənilməsi məqsədilə çoxşaxəli tədbirlər görülür. Şəxsi heyətin təlim-tərbi-



yəsi və mənəvi-psixoloji hazırlığına diqqət yetirilir.

Döyüş texnikasından bacarıqla və peşəkarcasına istifadə edə bilmələri üçün müxtəlif ərazi və hava şəraitində məşğələlər keçirilir. Fiziki hazırlıq məşğələlərinin keçirilməsində yarımqrup komandirləri də xüsusi fəallıq nümayiş etdirirlər.

Hərbi qulluqçulara cinayətkar dəstələrin zərərsizləşdirilməsi və tərk-silah edilməsi üzrə xüsusi metod və vasitələr öyrədilir, praktiki fəaliyyətə üstünlük verilir.

Mayor C.Tağıyev diqqətə çatdırdı ki, keçirilən məşğələlər şəxsi heyətin peşə vərdişlərinin təkmilləşdirilməsində çox əhəmiyyətli rol oynayır. Dəstə komandiri təlimlər zamanı şəxsi heyət tərəfindən təhlükəsizlik qaydalarına ciddi riayət olunduğunu bildirdi. O, həmçinin qəflətən qarşıya çıxan xidməti-döyüş tapşırıqlarının peşəkarcasına və müvəffəqiyyətlə yerinə yetirilməsi üçün bundan sonra da yorulmadan hazırlıqların davam etdiriləcəyini vurğuladı: “Hər bir xüsusi təyinatlı öz hərbi peşəsini, vəzifə borcunu dərindən öyrənməli, təhkim olunmuş silaha mükəmməl yiyələnməli, əlbəyaxa döyüş fəndlərini mənimsəməli, müxtəlif şəraitlərdə xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı döyüş və digər texnikanı bacarıqla tətbiq etməlidir”.

Dəstə komandiri intizamlı və fəal hərbi qulluqçulardan gizir Tural Əliyev, çavuşlar Həsən Hüseynov və Rəvan Kazımovun adlarını çəkdi.

**kapitan Şahin Cəfərzadə**

# YÜKSƏK DÖYÜŞ HAZIRLIĞI İLƏ FƏRQLƏNƏN BÖLMƏ

17072 saylı hərbi hissənin ayrı yerləşən patrul taborunun yüksək döyüş hazırlığı, nizam-intizamı və layiqli xidmətilə fərqlənən xüsusi vasitələrin tətbiqi bölməsi regionda ictimai qaydanın qorunub saxlanılmasında peşəkarlıq nümayiş etdirir. Bu işdə bölmə komandiri kapitan Cavad Qənbərovun əməyi danılmazdır.



Kapitan C.Qənbərov bildirdi ki, tərtib olunmuş məşğələ cədvəlinə əsasən, hərbi qulluqçularla ictimai-siyasi hazırlıq, sıra hazırlığı, fiziki hazırlıq, Daxili Qoşunların taktiki hazırlığı, atəş hazırlığı, taktiki hazırlıq üzrə məşğələlər keçirilir. Bu zaman onların bilik və bacarıqlarının artırılmasına, məşğələ mövzularının dərindən mənimsənilməsinə diqqət yetirilir. O, keçirilən təlim və məşğələlərin, eləcə də aparılan tərbiyə işinin döyüş hazırlığının hər zaman yüksək səviyyədə qorunub saxlanılmasına xidmət etdiyini söylədi.

Bölmə komandiri məlumat verdi ki, keçirilən təlimlər zamanı şəxsi heyətin bilikləri və praktiki vərdişləri şəxsən yoxlanılır. Təlimlərdə hər bir hərbi qulluqçu ona verilən tapşırıqları məsuliyyətlə yerinə yetirməyə çalışır. Həmçinin çətin şəraitlərdə döyüş tapşırıqlarının keyfiyyətlə icrası məqsədilə həftənin cümə günləri 2 saatdan az olmayaraq gecə təlimləri keçirilir.

Bundan əlavə, hərbi qulluqçularla yüksək nizam-intizama nail olunması və onun qorunub saxlanılması mövzusunda tərbiyəvi söhbətlər aparılır. Kapitan C.Qənbərov görülən işlərdə bölmə komandirinin müavini baş leytenant Ömər Bayramov və bölmə komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Qədir Talıbzadənin rolunu xüsusilə qeyd etdi.

Bölmə komandiri hərbi xidmətdə əzmkarlıq və nümunə göstərməyi bacaran xüsusi vasitələrin tətbiqi bölməsinin bundan sonra da üzərinə düşən vəzifələri uğurla icra edəcəyinə və qarşıya qoyulan tapşırıqları yerinə yetirərkən peşəkarlıq göstərəcəyinə əminliyini bildirdi. O, nümunəvi xidmətilə seçilən hərbi qulluqçulardan leytenant Əli Cəbiyev, çavuş Ruslan Rüstəmov və baş əsgər Tariyel Salmanovun adlarını çəkdi.

**kapitan Xədicə Hacızadə**

# HƏRBİ İNSTİTUTDA ONLAYN MÜŞTƏRƏK DƏRS TƏŞKİL OLUNUB

Daxili Qoşunların Hərbi İnstitutunda onlayn dərslər təsdiq edilmiş tədris planına uyğun olaraq mütəmadi xarakter daşıyır və artıq formalaşmış təcrübə əsasında həyata keçirilir. Belə tədbirlərdən biri Türkiyə Respublikasının Jandarm və Sahil Güvənlik Akademiyasının kursantları ilə birgə xüsusi-taktiki hazırlıq fənni üzrə “İnformasiya bazasının qorunması və kibertəhlükəsizliyə qarşı təhdidlər” mövzusunda keçirilmiş onlayn müştərək dərs olub.



Videobağlantı vasitəsilə təşkil olunan dərsə hər iki təhsil müəssisəsinin kursantları eyni vaxtda qatılıblar, informasiya resurslarının mühafizəsi, kibertəhdidlərin əsas növləri, hibrid təhlükələrin informasiya müstəvisində təzahür formaları və kiberhücumların hərbi idarəetmə sistemlərinə mümkün təsirləri müasir əməliyyat-taktiki reallıqlar əsasında izah edilib. İnteraktiv müzakirələr və sual-cavab mərhələsi kursantların analitik düşünmə, situativ qiymətləndirmə, operativ qərarvermə bacarıqlarının inkişafına müsbət təsir göstərib.

Dekabr ayı ərzində qurumlararası əməkdaşlıq çərçivəsində Daxili İşlər Nazirliyinin Polis Akademiyası ilə birgə “Hüququn əsasları və hərbi hüquq” fənni üzrə onlayn dərs keçirilib. Bu dərslər də planlı əsasda və mütəmadi qaydada təşkil olunur. Tədris prosesi təsdiq edilmiş plan və proqram əsasında aparılıb, hüquq düşüncəsi, hüquq mədəniyyəti, qanunçuluq, hüquq qaydası, eləcə də qanunların tətbiqi mexanizmləri izah edilərək kursantların hüquqi biliklərinin möhkəmləndirilməsinə xidmət edib.

**polkovnik Vüqar Şirinov**
**Hərbi-elmi şöbənin rəisi**

# OBYEKTLƏRİN MÜHAFİZƏSİ QÜSURSUZ YERİNƏ YETİRİLİR

12318 saylı hərbi hissənin döyüş hazırlığını yüksək səviyyədə qoruyub saxlayan, həvalə olunan tapşırıqları uğurla yerinə yetirən bölmələrindən biri komendant bölüyüdür. Hərbi hissənin döyüş bayrağının, avtomobil və zirehli texnikalar saxlanılan parkının, anbarların mühafizə və müdafiəsini təmin edən bölüyün şəxsi heyəti döyüş xidmətinin yerinə yetirilməsi zamanı peşəkarlıq nümayiş etdirir.



Komendant bölüyünün komandiri baş leytenant Vaqif İbadov bildirdi ki, hərbi hissənin mühafizə və müdafiəsini təşkil edən qarovulun üzərinə böyük məsuliyyət düşür. Bu baxımdan xidmətə cəlb olunan hərbi qulluqçularda bir sıra vacib xüsusiyyətlərə diqqət yetirilir. Belə ki, onların sağlamlıqları, mənəvi-psixoloji hazırlıqları xüsusilə nəzarətdə saxlanılır. Həmçinin ayıq-sayıqlıq, möhkəm iradə və digər lazımi keyfiyyətlər keçirilən nəzəri məşğələlər və praktiki təlimlər zamanı hərbi qulluqçulara aşılanır.

Baş leytenant V.İbadov əlavə etdi ki, xidmətdən əvvəl müvafiq plana əsasən, hərbi qulluqçulara müvafiq nizamnamənin maddələri çatdırılır: “Ümumiyyətlə, mütəmadi olaraq şəxsi heyətlə fərdi qaydada söhbətlər aparılır, mənəvi-psixoloji vəziyyəti öyrənilir, sağlamlığı tibb xidmətinin həkimləri tərəfindən yoxlanılır və ciddi nəzarətdə saxlanılır. Qarovulun xidmətinə nəzarət edərkən postlarda saatdarların vaxtlı-vaxtında dəyişilməsi ilə yanaşı, silahın doldurulub-boşaldılması zamanı təhlükəsizlik qaydalarına ciddi riayət olunması, eləcə də asudə vaxtın səmərəli təşkili də diqqət mərkəzində saxlanılır”.

Komendant bölüyündə xidmətin təşkilində, hərbi qulluqçuların xidmətə hazırlanmasında, qarovulun yoxlanılmasında bölük komandirinin müavini baş leytenant İbrahim Musayevin də yaxından iştirak etdiyini de-





yən komandir onun bacarıqlı və çalışqan zabit olduğunu vurğuladı.

Baş leytenant V.İbadov söylədi ki, şəxsi heyətlə düzgün təşkil edilən məşğələ və təlimlər hər zaman öz müsbət nəticəsini verir. Belə ki, komendant bölüyü qoşun xidməti və hərbi intizamın yekunlarına görə hərbi hissənin bölmələri arasında qabaqcıl yerə layiq görülüb. O, xidməti vəzifələrinin icrasına məsuliyyətlə yanaşan hərbi qulluqçulardan baş leytenant Rəhim Alıyev, leytenant Bəhrəm Şahbazov, baş çavuşlar Ruslan Atakişiyev və Əyyar İslamovun adlarını çəkdi.

**kapitan Xədicə Hacızadə**

# AVTOMOBİL BÖLÜYÜ VƏZİFƏLƏRİNİN ÖHDƏSİNDƏN BACARIQLA GƏLİR

25031 saylı hərbi hissənin qabaqcıl bölmələrindən biri də avtomobil bölüyüdür. Belə ki, avtomobil bölüyü 2025-ci ilin birinci yarımilinin xidməti-döyüş fəaliyyətinin yekunlarına görə hərbi hissənin bölmələri arasında 2-ci yerə layiq görülüb. Bölük komandiri baş leytenant Toğrul Qasımov əldə olunan müvəffəqiyyətin təkcə bölük üçün deyil, ümumilikdə bütün hərbi hissə üzrə əhəmiyyətli olduğunu dedi.




Bölükdə şəxsi heyətin ixtisas hazırlığının artırılmasına diqqət yetirilir və texniki təmir işləri zamanı təhlükəsizlik qaydalarına ciddi riayət olunur. Eyni zamanda, sürücülərin peşə məharətinin təkmilləşdirilməsi, müəyyən edilmiş marşrutun tərk edilməməsi, yol hərəkəti qaydalarına, xüsusən sürət həddinin aşılmamasına, ötmə və manevr etmə qaydalarının pozulmamasına əməl edilməsi hər zaman diqqətdə saxlanılır.

Bir qayda olaraq, bütün avtomobillərə xətdə çıxmamışdan öncə texniki qulluq göstərilir, hərbi hissəyə qayıtdıqdan sonra isə hər bir nəqliyyat vasitəsi təmizlənərək saxlanc yerlərində saxlanılır.

Avtomobillərin xətdə hazırlanması, gündəlik texniki qulluğun aparılması və nasazlıqların aradan qaldırılmasında təmir taqımının komandiri leytenant Qoşqar Məmmədlinin əməyini xüsusi qeyd etmək lazımdır. Həmçinin bölük komandirinin tərbiyə işləri üzrə müavini leytenant Hüseyn Əhmədov və bölüyün başçavuşu gizir Roman Vəliyevin öz sahələri üzrə bilikli, bacarıqlı hərbi qulluqçular olduqlarını bildirən komandir təmir işlərinin səmərəli təşkilində əsgərlər Kamil Zeynallı, Emin Bəşirov, Rauf Seyranov, Şahin Məmmədli və Radmir Babayevin xidmətlərini qeyd etməyi unutmadı.

Bölük komandiri günün nizam qaydalarında nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilməsi ilə yanaşı, bölükdə şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının artırılması məqsədilə müxtəlif məşğələlərin keçirildiyini bildirdi. Qeyd etdi ki, məşğələlər zamanı hərbi qulluqçuların ixtisas, atəş və fiziki hazırlıqlarına xüsusi diqqət yetirilir.

**kapitan Nigar Ağayeva**

3_Layout 1 25.12.2025 18:54 Page 1



# MASALLI RAYONUNDA YAŞAYAN ŞƏHİD AİLƏSİNƏ BAŞ ÇƏKİLİB

Bu gün cəmiyyətdə şəhid hərbi qulluqçuların xatirələri ehtiramla anılır, onların ailə üzvlərinə dərin rəğbət və hörmət nümayiş etdirilir. Şəhidlərin həyatı və şücaəti, mərdlik, qəhrəmanlıq nümunələri ilə zəngin olan xidməti-döyüş fəaliyyəti gənclərə örnək göstərilir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin şəhid ailələrinə göstərdiyi diqqət və qayğı göz önündədir. Şəhid ailələrinin sosial-məişət problemlərinin aradan qaldırılması, ehtiyaclarının qarşılanması istiqamətində respublikamızda həyata keçirilən tədbirlər təqdirəlayiqdir.

Daxili İşlər Nazirliyinin rəhbərliyi və Daxili Qoşunların komandanlığı tərəfindən şəhid ailələri ilə bağlı məsələlər daim diqqət mərkəzində saxlanılır.





25033 saylı hərbi hissədə xidməti ezamiyyətdə olarkən tərbiyə işləri üzrə bölmənin rəisi-baş təlimatçı mayor Fərhad Səfərovun rəhbərliyi ilə xüsusi təyinatlı dəstənin bir qrup hərbi qulluqçusunun Daxili Qoşunların şəhidi çavuş Vəliyev Ramazan Hilal oğlunun Masallı rayonunun Şərəfə kəndində yaşayan ailəsinə baş çəkməsi də göstərilən qayğının təzahürüdür. İlk olaraq, hərbi qulluqçular tərəfindən şəhidin Masallı rayonunun Şərəfə kəndinin qəbiristanlığında məzarı ziyarət olunub. Şəhadətə ucalmış döyüşçünün xatirəsi anılaraq məzarına gül dəstələri qoyulub.

Qeyd edək ki çavuş R.Vəliyev 1995-ci il iyunun 18-də Türkmənistan Respublikasının paytaxtı Aşqabad şəhərində doğulub. 2015-2017-ci illərdə o, Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin mühafizə alayında müddətli həqiqi hərbi xidmət keçib. 2019-cu ilin sentyabr ayında 67987 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi qrupunun atıcısı vəzifəsinə təyin edilib.

O, 44 günlük Vətən müharibəsində şərəfli döyüş yolu keçib. Hərbi zəfərimizlə başa çatan döyüşlər dayandırıldıqdan bir müddət sonra - noyabrın 29-da Şuşada düşməndən qalmış silah-sursatın axtarılması, təhlükəsiz yerə daşınması və mühafizə altına götürülməsi üzrə xüsusi tapşırığı yerinə yetirərkən çavuş R.Vəliyev işğalçılara məxsus qumbaranın partlaması nəticəsində ağır yaralanaraq şəhid olub.

Azərbaycan Respublikası Prezidentinin 15 dekabr 2020-ci il tarixli müvafiq Sərəncamı ilə çavuş R.Vəliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.

Şəhidin ailəsi ilə görüşən hərbi qulluqçularımız Ramazanın atası Hilal Vəliyev və anası Nüşabə Vəliyeva ilə söhbət ediblər. Söhbət zamanı valideynləri qəhrəman döyüşçümüzün ömür yolu barədə xatirələrini bölüşüblər. Şəhidin atası qeyd edib ki, Ramazan çox mehriban və məsuliyyətli bir övlad idi. O, hər zaman ailəsinə qayğı göstərib. Anası N.Vəliyeva isə belə bir qeyrətli oğlunun ölümünün sözlə ifadə edilməyən ağrı-acı olduğunu diqqətə çatdırıb. Ailəsi üçün təskinlik Ramazanın torpaqlarımızın azad edilməsi naminə şəhidlik məqamına ucalması və şəhidimizin adını daşıyan nəvələrini boya-başa çatdırmaqdır.

Mayor F.Səfərov R.Vəliyevin və digər şəhidlərimizin fədakarlıqlarını, ölkəmizin Vətən müharibəsində qazandığı hərbi zəfərin əhəmiyyətini qeyd edərək, ordumuzun antiterror tədbirləri nəticəsində öz qüvvəsi və qanı bahasına Qarabağ bölgəsində respublikamızın suverenliyini tam bərpa etməsi barədə danışıb. O, hərbi qulluqçularımızın şərəfli döyüş yolu barədə maraqlı məqamlara toxunub.

Ümumiyyətlə, müharibədən ötən müddət ərzində istər Daxili İşlər Nazirliyinin rəhbərliyi, istərsə də Daxili Qoşunların komandanlığı tərəfindən onlara göstərilən diqqət və qayğıdan razı qaldığını söyləyən Vəliyevlər ailəsi buna görə dərin minnətdarlığını ifadə edib.

**kapitan Şahin Cəfərzadə**

# DÖYÜŞ YOLU KEÇƏN XÜSUSİ TƏYİNATLI

Daxili Qoşunların sıralarında hərbi xidmət keçən çavuş Rəvan Kazımov qarşıya qoyulan tapşırıqları məsuliyyətlə yerinə yetirir. Hər zaman seçdiyi peşə ilə fəxr edən hərbi qulluqçu bu illər ərzində bir dəfə də olsun vəzifələrinin icrasına səthi yanaşmayıb.

O, 1998-ci ilin mart ayının 21-də Bakı şəhərində doğulub. 2004-2015-ci illərdə paytaxtın Yasamal rayonundakı 190 nömrəli orta məktəbdə təhsil alıb. 2016-cı ilin oktyabr ayından 2018-ci ilin yanvar ayınadək Dövlət Təhlükəsizliyi Xidmətinin Bakı şəhərində yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. 2018-ci ildə Daxili Qoşunların sıralarına müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. 25033 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi bölməsinin atıcısı, 2019-cu ildən xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunun pulemyotçusu, 2023-cü ildən isə xüsusi təyinatlı dəstənin atıcı-yazarı vəzifələrinə təyin edilib. Qeyd edilən vəzifələrdə komandanlığın etimadını doğruldub, komandirlər tərəfindən dəfələrlə mükafatlandırılıb. Hərbi kollektivdə silahdaşlarının hörmətini qazanıb.



2020-ci ilin sentyabr ayının 27-də başlayan, 44 gün davam edən Vətən müharibəsi zamanı ön cəbhənin müxtəlif istiqamətlərində ərazi bütövlüyümüzün bərpası uğrunda və 2023-cü il sentyabrın 19-dan 20-dək Qarabağ bölgəsində aparılmış lokal xarakterli antiterror tədbirlərində qətiyyətlə vuruşub.

Azərbaycan Respublikası Prezidentinin 25, 29 dekabr 2020-ci il, 7 noyabr 2025-ci il, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 aprel 2022-ci il tarixli müvafiq sərəncamları, həmçinin müdafiə nazirinin 28 dekabr 2020-ci il tarixli əmri ilə çavuş R.Kazımov "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Hərbi xidmətlərə görə", "Vətən müharibəsi iştirakçısı", "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalları ilə təltif olunub.

Funksional vəzifələrinin icrasına vicdanla yanaşan hərbi qulluqçu peşəkarlıq vərdişlərinin təkmilləşdirilməsi yönündə öz üzərində çalışır, verilən tapşırıqları yüksək səviyyədə yerinə yetirmək üçün əlindən gələni əsirgəmir.

Torpaqlarımızın azadlığı uğrunda aparılan hərbi əməliyyatlarda fəal iştirak etməsindən qürur duyduğunu deyən çavuş R.Kazımov Vətən yolunda canlarından keçən şəhidlərimizin qəhrəmanlıqlarla zəngin döyüş yolunun gənc nəslə örnək olduğunu bildirdi: "İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur bölgələrində üçrəngli bayrağımızın dalğalanmasını seyr etmək, təbii ki, hər bir Azərbaycan vətəndaşı üçün olduqca qürurvericidir. Respublikamızın ərazi bütövlüyünün bərpası uğrunda döyüş əməliyyatlarına qatılan bir hərbi qulluqçu üçün isə ikiqat fəxarətdir. Bu baxımdan Vətən müharibəsinin və antiterror əməliyyatının iştirakçısı olmağımla fəxr edirəm. Qazilərimizə şəfa, şəhidlik zirvəsinə yüksələn qəhrəman silahdaşlarımıza isə Allahdan rəhmət diləyirəm".

**kapitan Şahin Cəfərzadə**

*Şəhidlərimiz*

# ÖN CƏBHƏDƏ DÖYÜŞ RUHU VƏ AMALINA SON NƏFƏSİNƏDƏK SADİQ QALDI...

1988-ci ildən etibarən Ermənistanda azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti həyata keçirilməyə başlanılıb, soydaşlarımız əsrlərlə yaşadıqları doğma yurdlarından didərgin salınıblar. Beləliklə, qonşu respublikada şovinistlərin təhriki və onların havadarlarının dəstəyi ilə uzun illər qanlı faciələrə səbəb olmuş milli münaqişə alovlandırılıb. Həmin vaxt Qarabağda erməni separatizmi baş qaldırıb. Əslində, xalqımıza qarşı bu düşmənçiliyin kökləri uzaq keçmişə gedib çıxır. Tarix boyu ermənilər torpaqlarımıza göz dikiblər və qanımıza susayıblar.

Birinci Qarabağ müharibəsi zamanı dövlətimiz və xalqımız Ermənistanın hərbi təcavüzünün dəf edilməsi, ərazi bütövlüyümüz uğrunda ölüm-qalım mübarizəsi aparıb, ağır sınaqlardan keçib. Qarabağ, Şərqi Zəngəzur və digər bölgələrimizdə işğalçılara qarşı şiddətli döyüşlər gedib. Müstəqilliyimizin bu qanlı-qadalı mərhələsində yeni formalaşan Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının üzərinə Vətənin müdafiəsi kimi müqəddəs vəzifə qoyulub. Hərbi qulluqçularımızdan bir çoxu bu amal naminə döyüş meydanında canını qurban verib və qazi olub. Onların ön cəbhədə göstərdikləri mərdlik nümunələri yaddaşlarda silinməz iz buraxıb.

DİN-in Daxili Qoşunlarının Birinci Qarabağ müharibəsində şəhid olmuş 682 nəfər hərbi qulluqçusunun siyahısında əsgər Zeynalov Rəfi Vidadi oğlunun da adı var. Şəhidin Mingəçevir şəhərində yaşayan qardaşı Şirvani Zeynalov onun ömür yolu haqqında suallarımı cavablandırdı. Həmçinin Bakıda yaşayan müharibə veteranı, Daxili Qoşunların sabiq hərbi qulluqçusu, ehtiyatda olan polkovnik-leytenant İlqar Yusifov şəhid silahdaşı barədə xatirələrini mənə danışdı.

Rəfi 1973-cü il dekabrın 23-də Ermənistan Respublikasının İcevan rayonunun Haqqıxlı kəndində (Qərbi Azərbaycanın Qaraqoyunlu mahalının cənub-qərbindəki Karvansaray rayonunda, Ağstafa çayının kənarında yerləşir) doğulub. Kəndin türk mənşəli qədim adı həm haqqıx daşı çox olan yer, həm də sakinlərinin "biz haqqıx" deyərək zülmə, şərə boyun əyməmələri mənalarında yozulub. El-oba arasında Zeynalovlar ailəsi halal zəhməti ilə dolanıb, ədadların ruhlarına ehtiramı, mənəvi dəyərlərimizə bağlılığı ilə seçilib. Vidadi Zeynalov və Mehriban Zeynalova üç oğul və iki qız övladı böyüdərək boya-başa çatdırıblar.



Onların arasında Rəfi yaşına görə dördüncü övlad idi. Ailəcanlığı, ünsiyyətdə mehribanlığı, xeyirxahlığı, yoldaşlığa dürüstlüyü, ümumilikdə ədəb-ərkanı ilə fərqlənib.

Qərbi Azərbaycanda soydaşlarımıza qarşı məlum hadisələrin cərəyan etdiyi dövrdə Haqqıxlı kəndinin sakinləri də təhdid və təzyiqlər, habelə vəhşiliklərlə üzləşiblər. Sovet İttifaqının rəhbərliyi ermənilərin törətdikləri zorakılıqların qarşısının alınması üçün heç bir tədbir görməyib. Məqsədli şəkildə azərbaycanlı əhalinin tarixi məskənindən qovulması reallaşdırılıb.

1988-ci ildə qaçqın düşən həmyerliləri kimi, Zeynalovlar ailəsi də Azərbaycana pənah gətirib. Qaçqınlıq taleyi, gözəl təbiətli, bərəkətli, əzizlərinin məzarları olan obadan ayrılmaq onları dərindən sarsıdıb. Zeynalovlar ailəsi nur şəhəri adlandırılan Mingəçevirdə məskunlaşıb. Qoynuna sığındıqları, sakinlərindən qayğı gördükləri bu şəhərdə ailənin hər bir üzvü üçün yeni həyat başlayıb.

Öncə doğma kəndindəki orta məktəbdə, qaçqın düşdükdən sonra isə Mingəçevirdə yerləşən 1 saylı tam orta məktəbdə təhsil almış Rəfi çağırışaqədərki hazırlıq və fiziki tərbiyə fənlərinə daha çox maraq göstərib. Müəllimlərinin verdikləri tərbiyə və öyrətdikləri biliklər onun vətənpərvər əqidəli gənc kimi yetişməsində vacib rol oynayıb.

Yeniyetmə vaxtından idmanla həvəslə məşğul olub, bunu sağlam, güclü, iradəli və çevik olmaq üçün gərəkli vasitə hesab edib. Bununla yanaşı, çağırış yaşı yaxınlaşdıqca özünü hərbi xidmətə də hazırlayıb.

1992-ci ilin aprel ayında Rəfi Daxili Qoşunların sıralarına müddətli həqiqi hərbi xidmətə çağırılıb. 3645 (indiki 25032) saylı hərbi hissədə hərbi and içib. İlk gündən hərbi xidmətə şüurlu münasibət nümayiş etdirib, intizamlı, komandirlərin tələb və tapşırıqlarını vicdanla yerinə yetirən əsgər kimi özünə hörmət qazanıb. Təlimlərdə hərbi bilik və bacarıqlara əzmlə yiyələnib. Atəş və fiziki hazırlığında məharətini artırıb. Praktiki atışlarda hədəfləri dəqiqliklə nişan alaraq vurub. O, əsgər yoldaşları ilə söhbətlərində ön cəbhəyə getmək və döyüşən hərbçilərin sıralarında olmaq istədiyini bildirib. Onlara deyib ki, həmvətənlərimizi soyqırıma məruz qoyan, qaçqın-köçkün vəziyyətinə salan, şəhər və rayonlarımızı atəşə tutan düşməndən qisas almaq onun həyatının əsas məramıdır. Bu yolda heç bir təhlükənin, hətta ölümün də onu qorxutmadığını vurğulayıb. Komandirlərin döyüş sınağı ilə bağlı söylədikləri məqamlar Rəfini ruhlandırıb.

1992-ci ilin mart ayının 12-dən başlayaraq Daxili Qoşunların hərbi qulluqçuları döyüş əməliyyatlarına cəlb olunublar. Müntəzəm olaraq ayrı-ayrı hərbi hissələrdən şəxsi heyət ön cəbhənin müxtəlif istiqamətlərinə göndərilib. 3645 (25032) saylı hərbi hissə də istisna deyildi. Oradan 3650 (indiki 67987) saylı hərbi hissəyə yola salınan hərbi qulluqçuların arasında olan Rəfi bununla barıt qoxulu döyüş yoluna qədəm qoyub. 1992-ci ilin iyun-oktyabr aylarında o, Ağdam, Ağdərə və Xocalı rayonları istiqamətlərində düşmənə qarşı qətiyyətlə vuruşub. Torpaqlarımızın müdafiəsi və yağı tapdağından azad olunması naminə bütün əzab-əziyyətlərə ləyaqətlə sinə gərib.

Müharibənin od-alovundan keçmiş ehtiyatda olan polkovnik-leytenant İ.Yusifov sözügedən döyüşlər vaxtı taqım komandiri vəzifəsində olduğunu, əsgər R.Zeynalov Ağdam rayonunda ön mövqelərin müdafiəsində dayanarkən tanıdığını məlumat verdi. Veteranın dediyinə görə, Rəfi hərbi anda sadiq, cəsur, təhlükəli vəziyyətlərdə silahdaşlarına özünü yetirən, çətin tapşırıqların icrası etibar edilən döyüşçü olub.




Komandirin rabitəçisi kimi mühüm vəzifə ona həvalə olunub. Hərbi rabitə cihazını döyüş şəraitində işlək vəziyyətdə saxlamaq, fasiləsiz rabitə əlaqəsini təmin etmək asan olmayıb, lakin Rəfi bunu bacarıb.

İ.Yusifov Rəfinin son döyüş anlarından da danışdı. Belə ki, Ağdam-Əsgəran yolunun sağ kənarında, rayon mərkəzinə bir neçə kilometr məsafədə yerləşən strateji əhəmiyyətli Fərrux yüksəkliyini ələ keçirmək üçün bu istiqamətdə mövqelənmiş hərbi qulluqçularımıza hücum əmri verilib. Düşmən bu yüksəklikdən Ağdam şəhərini və ətrafdakı kəndləri davamlı şəkildə artilleriya atəşinə tutub, eləcə də geniş ərazini müşahidə altında saxlayıb, habelə Əsgərana doğru hücumların qarşısını alıb. Ona görə də yüksəkliyin nəzarətə götürülməsi zərurəti yaranıb. Ancaq yağının hündürdə yerləşən atəş nöqtələri, orada möhkəmləndirdiyi istehkamları ciddi manelər idi. Yüksəkliyə hücumlardan birində komandiri İ.Yusifovun yanında rabitəçi kimi döyüşə atılan Rəfi erməni snayperinin atəşinə tuş gəlib və şəhadətə ucalıb. Komandirinin qollarında can verib. Təhlükəli ərazidən nəşini İ.Yusifov özü çıxarıb.

Mingəçevir Şəhər Qeydiyyat Şöbəsi tərəfindən verilmiş 19 fevral 2019-cu il tarixli ölüm haqqında şəhadətnamədə hərbi qulluqçumuzun 1992-ci il oktyabrın 2-də Ağdam rayonu ərazisində şəhid olması barədə qeydlər öz əksini tapıb.

1992-ci il oktyabrın 3-də döyüşçünün nəşi Mingəçevir şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib.

44 günlük Vətən müharibəsi və lokal xarakterli antiterror tədbirləri zamanı qazanılan möhtəşəm hərbi zəfər sayəsində Azərbaycan qalib dövlətə çevrilib. Ölkəmizin ərazi bütövlüyü bərpa olunub. Bütün şəhidlərimizin qisası alınıb. Məcburi köçkün vətəndaşlarımızın üzərindən bu ad götürülüb.

Qeyd edim ki, Birinci Qarabağ müharibəsindən ötən uzun illər ərzində Fərrux yüksəkliyi işğal altında qalıb. 2022-ci il martın 29-da uğurlu əməliyyat nəticəsində yüksəklik ordumuzun nəzarətinə keçib.

Şəhidin valideynlərinə qələbəmizi görmək qismət olmayıb, onlar 2012-ci ildə vəfat ediblər. Rəfinin qardaşları və bacıları onun əziz xatirəsini yaşadır, gənclərlə görüşlərdə şərəfli döyüş yolundan söhbət açırlar.

Mingəçevirdəki "Şəhidlər muzeyi"ndə Rəfiyə aid şəkil, yazdığı məktub və şəxsi əşyaları saxlanılır. Döyüşçünün vaxtilə yaşadığı binanın divarına xatirə lövhəsi vurulub, həyətdə isə adına bulaq inşa olunub.

"Xəzər" televiziya kanalı şəhidin ömür yoluna həsr olunan sənədli film ərsəyə gətirib.

Nərmin Ağaqızının müəllifi olduğu "İki dostun oxşar taleyi" kitabında döyüşçünün ömür yolu işıqlandırılıb.

İnanıram ki, gün gələcək, əslən Qərbi Azərbaycandan olan soydaşlarımız, o cümlədən Zeynalovlar ailəsinin üzvləri də doğma torpaqlarına qovuşacaqlar.

Vətənə canını fəda etmiş Rəfi kimi oğulları xalqımız heç vaxt unutmayacaqdır.

**Allah şəhidlərimizə rəhmət eləsin!**

**Yalçın Abbasov**

4_Layout 1 25.12.2025 16:30 Page 1



# ORKESTR HƏRBİ HİSSƏDƏ KONSERT PROQRAMI İLƏ ÇIXIŞ EDİB

Şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin yüksək səviyyədə saxlanılması, onlara vətənpərvərlik hissinin aşılanması vacib məsələlərdən biridir. Hərbi xidmətdə şəxsi heyətin asudə vaxtının səmərəli təşkilinə xüsusi diqqət yetirilir. Bu istiqamətdə təşkil edilən tədbirlər zamanı hərbi qulluqçular maarifləndirilir, onların dünyagörüşlərinin, mədəni-estetik səviyyələrinin düzgün formalaşması əsas məqsədlər olaraq qarşıya qoyulur.




Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının "DİN-in Daxili Qoşunlarında tərbiyə işinin təşkili haqqında" müvafiq direktivinin tələblərinə əsasən, qoşunların Hərbi İnstitutu, hərbi hissə və bölmələrində müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının asudə vaxtının səmərəli təşkili xüsusi diqqətdə saxlanılan məqamlardan biridir. Bu məqsədlə müvafiq planlar tərtib edilərək şəxsi heyətin istirahət və bayram günlərində müxtəlif tədbirlər həyata keçirilir. Belə tədbirlərdən biri dekabrın 26-da 99713 saylı hərbi hissədə təşkil edilib. Belə ki, Daxili Qoşunların Nümunəvi göstərici hərbi orkestri 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə şəxsi heyət qarşısında geniş konsert proqramı ilə çıxış edib.



Konsertdə orkestrin solistləri: mayor Zaur Əmiraslanov, gizirlər Vəsilə İbrahimova, Kamran Rəcəbli, Nuranə Mailova, mülki işçilər Amil Məmmədov, Aygün Mahmudova və Mehranə Məmmədova hərbi-vətənpərvərlik hissi aşılayan mahnılar ifa ediblər. Repertuara daxil edilmiş "Azərbaycan", "Əsgərəm", "Qələbə", "Vətən oğlu", "Vətəndən pay olmayır", "Bura Vətəndir", "Çırpınırdı Qara dəniz", "Doğma diyar" mahnılarının və müxtəlif müsiqilərin ifası şəxsi heyətin alqışları ilə qarşılanıb.

Özünəməxsus yaradıcı dəst-xətti, peşəkar ifası və zəngin repertuarı ilə fərqlənən orkestr bayram günlərində müvafiq plana əsasən, 67987, 25031, 16076, 16075 saylı hərbi hissələrdə, eləcə də Hərbi İnstitutda konsert proqramı ilə çıxış edəcəkdir.

**kapitan Nigar Ağayeva**

*NÜMUNƏVİ XİDMƏT*

# TƏCRÜBƏLİ VƏ PEŞƏKAR TABOR KOMANDİRİ



12565 saylı hərbi hissənin əməliyyat taborunun komandiri mayor Arzuman Tağıyev öz vəzifə borcunu hərbi nizamnamələrin tələblərinə uyğun yerinə yetirir. O, 1991-ci il noyabrın 10-da Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunun Xok kəndində anadan olub. Orta təhsilini 1998-2009-cu illərdə Xok kənd tam orta məktəbində alıb. 2010-2011-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. 2011-ci ildən Daxili Qoşunların 12565 saylı hərbi hissəsinin xüsusi vasitələrin tətbiqi dəstəsində müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. 2012-2014-cü illərdə Daxili Qoşunların Orta İxtisas Hərbi Məktəbində (hazırda Hərbi İnstitut) təhsil alıb. 2014-cü ildən 2021-ci ilədək 12565 saylı hərbi hissədə müxtəlif vəzifələrdə xidmət edib. 2021-ci ildən hazırkı vəzifədədir.

Tabeliyində olan şəxsi heyətə qarşı tələbkarlığı ilə yanaşı, diqqət və qayğısını da əsirgəmir. Hərbi hissə komandiri polkovnik Təbriz Kərimov mayor A.Tağıyevin taborda intizamın, daxili qayda-qanunun yaradılmasında, eləcə də döyüş hazırlığının daim yüksək səviyyədə qorunub saxlanılmasında böyük əməyinin olduğunu qeyd etdi. Onun nümunəvi zabit kimi funksional vəzifələrinin öhdəsindən layiqincə gəldiyini nəzərimizə çatdırdı.

Mayor A.Tağıyev yüksək döyüş hazırlığı, təşkilatçılığı və icraçılığı ilə fərqlənən hərbi qulluqçu kimi müxtəlif medallarla təltif edilib, eləcə də hərbi hissə komandanlığı tərəfindən bir sıra mükafatlara layiq görülüb.

**mayor Anar Əhmədov**

# ŞƏXSİ HEYƏTİN KEYFİYYƏTLİ QİDALANMASI KOMANDANLIĞIN DİQQƏT MƏRKƏZİNDƏDİR

Daxili Qoşunların komandanlığının əsas diqqət yetirdiyi sahələrdən biri də şəxsi heyətin keyfiyyətli, kalorili yeməklərlə qidalanmasıdır. Çünki hərbi qulluqçuların sağlamlıqlarının qorunması və səhhətlərinin möhkəmləndirilməsi digər amillərlə yanaşı, sağlam və keyfiyyətli qidalanmadan da asılıdır.

12565 saylı hərbi hissənin maddi-texniki təminat xidmətlərində ərzaq xidmətinin rəisi mayor Rəsul Əliyev şəxsi heyətin qidalanmasının Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Silahlı Qüvvələrdə ərzaq normalarının bölünməsi Qaydaları"na, daxili işlər nazirinin müvafiq əmri ilə təsdiq edilmiş "Daxili Qoşunlarda ərzaq xidmətinin təşkili haqqında Əsasnamə"yə və digər rəhbəredici sənədlərin tələblərinə əsasən təşkil edildiyini söylədi. Onun sözlərinə görə, xörəklərin keyfiyyətli hazırlanması Daxili Qoşunların və hərbi hissə komandanlıqlarının qarşıya qoyduğu ən vacib tələblərdəndir. Bu baxımdan hazırlanan xörəklərin keyfiyyətinin yüksək olması, sanitar-gigiyenik qaydalara ciddi riayət edilməsi üçün bütün tədbirlər görülür.






Mayor R.Əliyev şəxsi heyətin gündəlik qida rasionu barədə də məlumat verdi. Söylədi ki, hərbi qulluqçuların qidalanmasında əsasən milli təamlara üstünlük verilir. Gündəlik olaraq mövsümi salatlar və meyvə şirələri də rasiona daxildir. O, şəxsi heyətin qidalanmasının həftəlik bölgü cədvəlinə əsasən təşkil olunduğunu bildirdi.

Zabit görülən işlərdə hərbi hissənin təminat bölüyünün təminat taqımının yeməkxana rəisi baş gizir Vüsal Rzayevin və xüsusi təyinatlı dəstənin təminat taqımının yeməkxana rəisi baş gizir Orxan Quliyevin zəhmətini xüsusilə vurğuladı. Onların qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəldiklərini, qidaların tələb olunan keyfiyyətdə hazırlanması, gigiyena qaydalarına ciddi əməl olunması üçün əməklərini əsirgəmədiklərini diqqətə çatdırdı.

Əlavə olaraq, qidaların tələb olunan keyfiyyətlə hazırlanmasında aşpaz-işçilərdən Röya Fərzəliyeva, Ulduz Məmmədova, Mirvari Babayeva, Şəfa Quliyevanın, eləcə də kurs keçmiş ixtisaslı aşpazlardan əsgərlər Sadiq Hüseynov və Siyahpər Həsrətovun fəaliyyətlərini müsbət xarakterizə etdi.

**mayor Anar Əhmədov**

# XİDMƏTİNİ TƏLƏBLƏRƏ UYĞUN TƏŞKİL EDƏN RADİOTELEFONÇU



12318 saylı hərbi hissənin nümunəvi xidmətilə fərqlənən hərbi qulluqçularından biri əsgər Şükür Şükürovdur. O, 2006-cı ilin noyabr ayının 25-də Masallı rayonunun Köhnə Alvadı kəndində anadan olub. Orta təhsilini Bambaşı kəndindəki tam orta məktəbdə alıb. Uşaq yaşlarından idmanın sərbəst güləş növü ilə məşğul olub, respublika üçüncüsüdür.

2025-ci ilin yanvar ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 25031 saylı hərbi hissədə hərbi xidmətə başlayıb. Fevral ayından may ayınadək 25032 saylı hərbi hissədə təşkil edilmiş rabitəçi kursunu keçib. Hazırda təminat bölüyünün rabitə taqımının radiotelefonçusu vəzifəsində xidmətini davam etdirir. Əsgər Ş.Şükürov bacarıqlı, intizamlıdır, hər zaman biliklərini artırmağa çalışır. Qarşısına qoyulan tapşırıqların icrasına məsuliyyətlə yanaşır. Hərbi nizamnamələrin tələblərini bilir və gündəlik xidmətini bu tələblərə uyğun təşkil edir. Nümunəvi xidmətinə görə həm hərbi hissə, həm də bölük komandiri tərəfindən mükafatlandırılıb.

Radiotelefonçu bildirdi ki, rabitə növbətçisi kimi xidmətə cəlb olunur və gündəlik Daxili Qoşunların Baş İdarəsi, eləcə də hərbi hissənin bölmələri ilə rabitə əlaqəsi yoxlanılır, hər hansı nasazlıq baş verərsə, dərhal aradan qaldırılması təmin edilir.

Hərbi hissənin təminat bölüyünün komandiri baş leytenant Yusif Seyidəliyev əsgər Ş.Şükürovu müsbət xarakterizə edərək, onun vəzifə borclarını layiqincə icra etdiyini, şəxsi keyfiyyətləri ilə yoldaşlarına nümunə olduğunu söylədi.

**kapitan Xədicə Hacızadə**

# HƏRBİ HİSSƏNİN CAMAŞIRXANASININ FƏALİYYƏTİ QƏNAƏTBƏXŞDİR

25032 saylı hərbi hissənin camaşırxanası bütün növ əmlakların yuyulması, qurudulması, o cümlədən çeşidlənməsi üçün lazım olan müasir texniki avadanlıqlarla təchiz olunub.

Qeyd etmək lazımdır ki, qarşıya qoyulan tapşırıqların uğurla yerinə yetirilməsində işçilərin əməyi böyükdür. Şəxsi heyətin həftə ərzində istifadə etdiyi əmlakların yuyulması onlar tərəfindən həyata keçirilir. Hərbi hissənin təminat bölüyünün təminat taqımının hamam-camaşırxana kombinatının rəisi baş çavuş Məhəmməd Sadıxov tabeliyində olan işçi xanımların fəaliyyətindən söz açdı, onların işgüzar və mənəvi keyfiyyətlərini sadaladı. O bildirdi ki, camaşırxana işçiləri Gülnarə Eyvazova, Ayşən Məmmədova və Gülnar Abbasova öz işlərini məsuliyyətlə görür, hər bir əsgərə ana qayğısı ilə yanaşırlar.






Hamam-camaşırxana kombinatının rəisi onu da vurğuladı ki, hamam tədbirlərindən sonra həftənin bazar ertəsindən çərşənbə gününə kimi hərbi qulluqçuların çirkli əmlakları yuyulur. Hər bir əmlak qurudulub ütüləndikdən sonra çeşidlənərək aidiyyəti üzrə bölmələrə təhvil verilir. Əmlaklar istifadə təyinatına və rənginə görə ayrıca paltaryuyan qurğularda yuyulur ki, bu da sanitar-gigiyenik qaydaların gözlənilməsi deməkdir. Gigiyenik qaydalara ciddi əməl olunması həm də hissə komandanlığının nəzarətdə saxladığı və işçilərin qarşısında qoyduğu ən mühüm tələbdir.

**kapitan Nigar Ağayeva**

# İDMAN KOMANDASININ BACARIQLI VƏ ŞÜCAƏTLİ HƏRBİ QULLUQÇUSU



Daxili Qoşunların İdman komandasının hərbi qulluqçusu əsgər Adil Adilzadə 2002-ci il avqustun 21-də Bərdə rayonunun Otuzikilər kəndində anadan olub. 2008-2019-cu illərdə Bakının Ramana qəsəbəsində yerləşən 90 saylı tam orta məktəbdə təhsil alıb. Uşaqlıq illərindən Adilin ömür yolu idmana bağlanıb desək, heç də yanılmarıq. O, 10 yaşından idmanın cüdo və sambo növləri ilə məşğul olub. Azərbaycan Sambo Milli Komandasının üzvüdür. Gənclər və kişilər arasında ölkə kuboku uğrunda yarışın, dəfələrlə ölkə çempionatının qalibi, kadetlər və gənclər arasında I MDB Oyunlarının bürünc mükafatçısıdır. 2023-cü ildə kişilər arasında kazak güləşi üzrə Avropa çempionu, 2025-ci ilin aprel ayının 24-də kişilər arasında sambo üzrə Avropa ikincisi olub.

2025-ci ilin may ayından idman komandasının atıcı-idmançısı vəzifəsində xidmət edir. Ali təhsillidir. 2020-2025-ci illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında ali təhsilə yiyələnib. Cari il iyunun 24-də Azərbaycan Respublikasının "idman ustası" dərəcəsinə layiq görülüb.

Artıq uzun zamandır ki, peşəkar idmanla məşğul olan Adil hərbi qulluqçu olaraq xidmət etdiyi qurumu da layiqincə təmsil etməyi bacarıb. Belə ki, oktyabr ayının 29-30-da 8 noyabr - Zəfər Gününə həsr olunmuş cüdo üzrə ölkə çempionatında iştirak edərək bürünc medala layiq görülüb.

Həmçinin noyabrın 8-də Qırğızıstanın paytaxtı Bişkek şəhərində keçirilən kişilər arasında sambo üzrə Dünya çempionatında 88 kq çəki dərəcəsində 3-cü yeri qazanıb.

Azərbaycan Respublikasının bayrağını dəfələrlə ucaldan idmançı hərbi qulluqçumuza bu yolda nailiyyətlər arzulayırıq.

**kapitan Nigar Ağayeva**

*Həkim məsləhəti*

# RASİONUNUZA BALQABAQ ƏLAVƏ ETMƏYİN 7 FAYDALI SƏBƏBİ

Balqabaq sellüloz, vitamin və minerallarla, həmçinin sağlamlığın möhkəmlənməsinə kömək edən güclü antioksidləşdiricilərlə zəngindir.

AZƏRTAC "MedikForum" saytına istinadən balqabağın sağlamlıq üçün faydalı olan 7 üstün cəhətlərindən bəhs edir.

Yüksək səviyyədə S vitamini ilə zəngin olan balqabağın həm toxumları, həm də ləti immun sistemini möhkəmləndirir. Bu mikroelement immun sisteminin sağlamlığı üçün çox vacibdir. Mütəxəssislərin fikrincə, balqabaqdakı faydalı keyfiyyətlər müxtəlif xroniki xəstəliklərin riskini azaldır.

Qeyd edək ki, balqabaq qanı zərərli maddələrin təsirindən qoruyaraq qaraciyərin təmizlənməsinə kömək edir. Balqabağın tərkibindəki karotinoid adlanan zəngin bitki birləşmələri qaraciyərin təmizliyini və sağlamlığını qoruyur.



A vitamininə çevrilən beta-karotinlərin, antioksidantların əla mənbəyi sayılan balqabaq görmə qabiliyyətini tənzimləyir. Qeyd edək ki, A vitamini gözün aydın görməsi və sağlamlığı üçün çox vacibdir.

Balqabaq, həmçinin çəkinin azalmasına imkan yaradır. Onun tərkibində sellüloz maddələrin yüksək dərəcədə olmasına görə yeyildikdən sonra uzun müddət aclıq hiss olunmur.

Orqanizmdə kollagenin həcmini artıran S vitamini dərinin sağlamlığını yaxşılaşdırır. Sözügedən zülalın bədəninizdə yüksək səviyyədə olması dərinizin parlaq qalmasına kömək edir.

Kalium və yüksək qan təzyiqinin qarşısını ala bilən natrium maddələri ilə zəngin olan balqabaq ürəyin sağlam qalması üçün çox faydalıdır. Məlumdur ki, yüksək qan təzyiqi ürək xəstəliyi riskini artırır.

Karbohidratların balqabağı doyumlu etmələrinə baxmayaraq, qanda şəkərin səviyyəsini aşağı salır. Balqabaq şəkərli diabet xəstələrində insulin rezistentliyini yaxşılaşdırır və xəstəliyin inkişafını ləngidir.

**AZƏRTAC**

## Allah rəhmət eləsin

Daxili Qoşunların Veteranlar şurası **istefada olan kapitan Həsrət Nağdəliyevin** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, R.Hüseynov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000